**UOT 902; 94 (479.24)**

# MENTEŞE BƏYLİYİNDƏ HƏRBİ İŞİN TƏŞKİLİ

**S.Ə.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***
***sevinc_zeynalova@hotmail.com***

*Qərbi Anadolu bəyliklərinin dövlət quruluşunda hərbi iş önəmli yer tuturdu. Qeyd etmək lazımdır ki, bu bəylər, o cümlədən Menteşe bəyi möhtəşəm donanmaya sahib idilər.*

*Gəmilərə bəyin xidmətində olan kapitanlar komandanlıq edirdi. Çox hallarda rəislər İslamı qəbul etmiş xristianlardan olurdu. Menteşe bəyinin donanmasında xeyli sayda kritli və dəniz piyadaları da fəaliyyət göstərirdi.*

*Quru qoşunları piyadalardan və süvarilərdən ibarət idi. Dəniz döyüşləri zamanı dəniz piyadaları qayıqlarda oturur, müsəlləmlər isə gəmiləri hücumlardan qoruyurdular.*

*Qalaların mühasirəsi zamanı Menteşe türkləri qalanı yarğan qazıyaraq əhatəyə alırdılar, hücum zamanı isə nərdivanlardan istifadə edirdilər. Qalalara hücum zamanı çox zaman mancanaqlardan istifadə olunurdu.*

*İstər silahlanmada, istərsə də müxtəlif hərbi əməliyyatların aparılması işində Menteşe bəylərinin qoşunları Osmanlı qoşununu üstələyirdi. Lakin XIV əsrin sonlarından etibarən Menteşe qoşunu açıq döyüşlərdə osmanlılara uduzmağa başlayır, çünki bu zaman Osmanlı bəyləri artıq daimi ordu – yeniçərlər korpusuna sahib idilər.*

**Açar sözlər:** hərbi iş, donanma, qalaların mühasirəsi, yeniçərlər

Qərbi Anadolu bəyliklərinin hər birində, o cümlədən də Menteşe bəyliyində dövlət quruculuğuna böyük diqqət yetirilirdi. Fəth olunmuş torpaqlar ulu bəyin ən yaxın qohumları arasında bölüşdürülürdü. Yerlərdə Ulu bəyin oğulları ətrafında ən nüfuzlu bəylər-qazilər toplanırdı. Menteşe bəyliyində ali bəylər (ayani devlet və ya ərkani-devlet, yəni "dövlətin sütunları") sayca az olsalar da, çox nüfuzlu idilər. Dövlət idarəçiliyndə və saray işinin təşkilində bu bəylərin rolu böyük idi.

Amma Menteşe bəyliyində, eləcə də digər türk bəyliklərində ali bəylərin bu nüfuzunu artıran başlıca amil onların hərbidəki yüksək mövqeyi ilə əlaqədar idi. Bu, bir tərəfdən, ümumiyyətlə, türklərin həyatında hərb işinin böyük rol oynaması ilə bağlı idi, digər tərəfdən isə, Menteşe bəyliyinin coğrafi və siyasi mövqeyinin özəllikləri ilə əlaqəli idi. Belə ki, sahil dövləti olması, təbiidir ki, bu bəylikdə donanmanın yüksək səviyyədə təşkil edilməsini tələb edirdi, çünki Egeydə onu çox təhlükəli düşmənlər – güclü donanması olan xaçlı dövlətləri və

italyan şəhərləri əhatə etmişdi. Digər tərəfdən, quruda da Menteşenin düşmənləri az deyildi və hər zaman hərbi hazırlıqda olmaq bu bəyliyin də həyatının adi halına çevrilmişdi.

Menteşe bəyliyində hərbi işin təşkili haqqında danışarkən, ilk növbədə qeyd etmək lazımdır ki, bu bəylik çox güclü donanmaya sahib idi. Hələ 1318-ci ildə Kritin hakimi Venesiya dojuna yazırdı ki, türklərin gəmiləri – 100 və ya 50 avarlı əsl hərbi gəmilərdir (1, c.1, sayı 61). Bəzi mənbələrin məlumatlarına görə isə, Menteşenin donanması müəyyən illərdə irili-xırdalı 350 gəmiyə çatırmış (2, 501-502, 523-526). Bu gəmilər aşağıdakı növlərə ayrılırdı:

- kadırqa;
- igribar;
- qayıq.

Gəmilərin əksəriyyətində "yunan odu" ilə atəş açmaq üçün xüsusi qurğular (tüfək) olurdu (3, 71, qeyd 1). Ənvəri yazır ki, Smirnanın alınması zamanı türklər frankların gəmilərini neftlə yandırmışdılar (4, 52, 56, 117).

Yürüşə göndərilən döyüşçülər gəmilərə xüsusi çalğıların (kus, nağara, nefir, boru, zurna, ney və s.) sədaları altında minirdilər. Bəzən qazilər özləri ilə yürüşə digər çalğı alətləri (qopuz, rübab) də götürürdülər (4, 70). İri gəmilərdə isə zadəgan bəylər hətta öz atlarını da daşıyırdılar (4, 52, 64, 89).

Gəmilərə kapitanlar (rəislər) komandanlıq edirdilər. Bu kapitanlar şəxsən Ulu bəyin özünün xidmətində olurdular (5, c.1, sayı 679). Bir çox hallarda isə kapitanlar İslamı qəbul etmiş xristianlar olurdular. Məsələn, 1402-ci ilin martında Palatya və Teologo limanlarında yürüş üçün hazırlanmış 20 gəmidən ibarət donanmaya Xios adasından olan Kressi adlı xristian komandanlıq etmişdi (6, c.4, 249; 7, 247-248). Bu zaman bəyliyin donanmasında Venesiyanın təbəələri olan kritlilər də xidmət göstərmişlər (5, c.2, sayı 966). Bu praktika digər türk bəyliklərində də yayılmışdı. Məlumdur ki, 1416-cı ildə Osmanlı donanması üzərində qələbə çalan Venesiya admiralı Pyetro Loredano türklərin xidmətində olan böyük sayda xristian dənizçini asmışdı.

Dənizçilərə azaplar (azeblər) deyilirdi (4, 54; 6, c.4, 248). Həmçinin dəniz piyadaları da var idi ki, digərilərindən fərqlənmək üçün onlar xüsusi baş geyimi (çubuq börk) geyinirdilər (4, 64, 75). Bəzi tarixçilər güman edir ki, öz börklərini çubuqla bəzəmək adətini bu dənizçilər bektaşi dərvişlərindən əxz etmişlər (8, 162, qeyd 48).

Quru qoşunları piyada dəstələrindən, atlı dəstələrindən (müsəlləm, müsəllim) və timarçı süvarilərdən (sipahi, süvar) ibarət idi (4, 75, 95, 97).

Osmanlıların yaya dəstələri timsalında təşkil olunmuş qoşun Menteşe bəyliyində üstünlük təşkil edirdi, lakin XV əsrə doğru osmanlılarda bu növ qoşun hissələri artıq ortadan qalxır və onların yerinə yeniçər qoşunu yaranır ki, bu da, müasirlərinin dediklərinə görə, yaya dəstələrinin nizam-intizam baxımdan zəif olması ilə əlaqədar olmuşdur.

Menteşe bəyliyində yaya qoşun dəstələri aşağıdakı prinsiplər əsasında təşkil olunurdu: bir neçə kəndli ailəsi öz becərdikləri torpaq paylarından əlavə,

yaya dəstəsinin təşkilati vahidi olan ocaqda birləşirdi. Ocaq üzvləri dövlət vergilərindən və mükəlləfiyyətlərindən azad edilirdilər, amma hərbi yürüş zamanı hər ocaqdan bir nəfər döyüşçü verməli idilər (8, 127-128).

Müsəlləmlər atlı dəstələrdə iştirak etdiklərindən, onların ocaqları da taxıl vergisindən (tereke) azad edilirdi (9, 241, bölmə 2, 3).

Dəniz döyüşləri zamanı yaya döyüşçüləri avarları çəkir, müsəlləmlər isə gəmini hücumdan müdafiə edirdilər (9, 241, bölmə 4).

Menteşe bəyinin ordusunda ağır silahlı süvarilər timar sahibləri olan sipahilər idi. Zadəgan döyüşçülər müdafiə məqsədli yaraq – bürümə geyinirdilər (4, 54, 115), başlarına üzlük adlanan dəbilqə qoyurdular (4, 129). Timarçı süvarilərin zirehləri daha sadə olub cebbe adlanırdı.

Bir qayda olaraq timarçını döyüşdə onun silahdaşıyanı (qulam) müşayiət edirdi (10, sayı 115).

Menteşe bəyliyinin ordusu alaylardan ibarət idi ki, onlar da öz növbəsində bölüklərə ayrılırdı (8, 129). Alaylara subaşı komandanlıq edirdi, zadəgan bəylərin öz xüsusi sancaqları olurdu.

Döyüşqabağı qoşun hissələri bir cərgəyə düşülürdü, oxatanlar isə düşməni uzun oxlarla atəşə tuturdular. Jurden de Sevarak yazır ki, "türklər - əla oxatandırlar" (11, 160).

Əksər hallarda Menteşe türkləri də əl-karr və əl-farr adlı taktikadan istifadə edirdilər. Bu taktikanın mahiyyəti belə idi ki, döyüşçülər ya geri çəkilirdilər, ya qaçırdılar, ya da geri dönürdülər və bununla da düşməni çaş-baş salırdılar (bax: 12, 133).

Qalaların mühasirəsi zamanı türklər qalanı səngərlə və xəndəklə əhatələyirdilər, hücum zamanı isə nərdivanlardan istifadə edirdilər, ya da lağım atırdılar (4, 68, 82, 87, 115). Məsələn, yunan müəlliflərindən biri – Georgios Paximerios yazır ki, türklər "qala divarlarının altına çoxlu sayda lağım atır, daha sonra ora quru ağacları yığırlar... Bu ağacları yandırmaq kifayətdir ki, bünövrəsi lağımlarla onsuz da çökmüş olan divarlar dağılsın" (13, 436-437).

Qeyd edək ki, Batı Anadolu bəyliklərində qalaların alınması təcrübəsi çox geniş yayılmışdı və hətta bəzi tarixçilər hesab edir ki, XIV əsrin birinci yarısında Aydınoğulları və Menteşeoğulları hərbi işdə Osmanlı bəylərini xeyli ötüb keçirdilər (8, 130).

Lakin XIV əsrin sonlarından etibarən Menteşe bəylərinin hərbi qüdrəti zəifləməyə başlayır: açıq döyüşlərdə Menteşe bəyləri tez-tez Osmanlı qoşunlarına məğlub olurdular ki, bu da osmanlıların sahib olduqları yeniçər korpusunun üstünlüklərindən xəbər verirdi.

Yeniçərlərin qüdrətinə arxalanan Osmanlı bəyləri XIV əsrin sonu Avropada böyük ərazilər əldə edə bildilər və Menteşe, eləcə də Aydın və Saruxan bəyliklərini çox asanlıqla özlərinə tabe etdirdilər. 1453-cü ildə İstanbulun fəthi ilə isə Egey bölgəsində Osmanlı hakimiyyəti qəti bərqərar oldu.

**ƏDƏBİYYAT**

1. Diplomatarium Veneto-Levantinium. Pars 1-2. Venetiis, 1899 – 1008 p.
2. Kahane H., Kahane R., Tietze A. The Lingua Franca in the Levant. Urbana, 1998 – 237 p.
3. Cippola C. M. Guns and Sails in the Early Phase of European Expansion. London, Macmillan, 1995 – 179 p.
4. Le destan d'Umur Pacha // Bibl. Byzantine. Documents 2. Paris, 1994 – pp.56-59
5. Thiriet F. Déliberations des Assamblées venitiennes concernant la Romanie. Paris, Difel, 1966-1971 – 760 p.
6. Jorga N. Notes et extraits pour servir a l'Histoire des Crousades // ROL, 4–5, 1996-1997 – pp.109-117
7. Dennis G. T. Three Reports from Crete on the Situation in Romani. 1401-1402 // Studi Veneziani. Firenze, 1970, vol. 12 – pp.43-48
8. Жуков А.К. Эгейские эмираты в 14-15 вв. М.: Наука, 1988 – 192 с.
9. Barkan Ö. XV-XVI asırlarda Osmanlı İmparatorluğunda zirai ekonominin hukuki ve mali esasları. Cilt 1: Kanunlar. İstanbul, 1945 – 570 s.
10. İnalcık H. Hicri 835 tarihli Suret-i Defter-i Sancak-i Arvanid. Ankara: YKY, 1954 – 431 c.
11. Журден де Северак. После Марко Поло. М., Наука, 1968 – 278 с.
12. Римская история Никифора Григора. Т.1.Санкт-Петербург, (б.и.), 1862 – 401 с.
13. Георгия Пахимера. История о Михаиле и Андронике Палеологах. Т.1. Санкт-Петербург, (б.и.), 1862 – 127 с.

## ОРГАНИЗАЦИЯ ВОЕННОГО ДЕЛА В ЭМИРАТЕ МЕНТЕШЕ

**С.А.ЗЕЙНАЛОВА**

**РЕЗЮМЕ**

В эмирате Ментеше военное дело занимало важное место. Здесь имелся могучий флот.

Кораблями командовали капитаны, которые были на службе у эмиров. Во многих случаях начальники были среди христиан, принявших ислам. Во флоте эмирата Ментеше служило много критов. Также существовала морская пехота.

Сухопутные войска состояли из пешеходных и конных. Во время морских боев морские пехотинцы сидели в лодках, конные защищали корабли от нападений.

Войска эмиратства Ментеше и вооружением, и ведением различных военных операций опережали османские войска. Но, начиная с конца XIV века, войска Ментеше в открытых боях проигрывают османским войскам, так как в это время они уже владели постоянной армией – корпусом янычаров.

**Ключевые слова:** военное дело, флот, осада замков, янычары

## MILITARY ORGANIZATION IN MENTESHE EMIRATES

**S.A.ZEYNALOVA**

**SUMMARY**

Military had a special place in the state structure of the Western Anatolian emirates. It should be noted that all the emirs, including Emir Menteshe had powerful fleets.

Ships were commanded by captains, who were employed by emirs. Reis were often Christians who accepted Islam. On the Menteshe emirate's fleet served many Cretans. The emirate had also marines.

Ground forces consisted of cavalry and riders. During naval battles marines stayed on the boats and riders protected ships from attacks.

The army of Menteshe emirate had advantage over the Ottoman army both in terms of armament and conduction of military operations.

From the end of the XIV century, the army of Menteshe lost the battles to the Ottoman army, as they already possessed the permanent army – janissary corps.

**Key words:** military, fleet, siege castles, janissaries